**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İran İslam Respublikasının Kooperasiya, Əmək və Sosial Rifah Nazirliyi arasında əməkdaşlıq haqqında**

**ANLAŞMA MEMORANDUMU**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İran İslam Respublikasının Kooperasiya, Əmək və Sosial Rifah Nazirliyi,

iki ölkə arasında, onların milli qanunvericiliyinə uyğun olaraq, əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək niyyətlərini ifadə edərək,

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əməkdaşlıq üçün mövcud potensiala əsaslanaraq,

Tərəflərin ən qabaqcıl milli təcrübələrini paylaşmaqla, qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində öz səylərini birləşdirmək qərarını təsdiqləyərək,

aşağıdakılar barədə razılaşdılar:

**Maddə 1**

Tərəflər öz səlahiyyətləri çərçivəsində və milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı əsas sahələr üzrə məlumat və təcrübə mübadiləsi məqsədilə əməkdaşlıq edirlər:

1. əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində müvafiq qanunvericiliyin təkmilləşdirilməsi;
2. əmək münasibətlərinin tənzimlənməsi, əməyin təftişi və əməyin təhlükəsizliyi;
3. işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına dair nəzarət işinin təşkili və təkmilləşdirilməsi, işçilər və işəgötürənlər arasında mübahisələrin həlli üçün görülən tədbirlər;
4. iş yerlərində təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi üçün preventiv tədbirlərin həyata keçirilməsi;
5. peşə risklərinin qiymətləndirilməsində əməyin mühafizəsi laboratoriyasının imkanlarından istifadə olunması;
6. işsiz, işaxtaran vətəndaşların və sosial müdafiəyə xüsusi ehtiyacı olan qrupların məşğulluq imkanlarını genişləndirən aktiv əmək bazarı siyasətinin hazırlanması, gənclərin məşğulluğunun artırılması;
7. əmək bazarının tələbatlarına uyğun olaraq işsiz və işaxtaran vətəndaşlar üçün peşə hazırlığının həyata keçirilməsi;
8. işəgötürənlər tərəfindən əməkçi miqrantların hüquqlarının təmin edilməsinə nəzarətin həyata keçirilməsi;
9. işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması, peşə və ixtisas standartlarının hazırlanması və tətbiqi;
10. əlilliyi olan şəxslərin sosial müdafiəsinin təşkili, əlilliyin qiymətləndirilməsi sistemi, əlilliyi olan şəxslər üçün xüsusi peşə hazırlığı və peşəyönümlü proqramların hazırlanması

və tətbiqi, əlilliyin bərpası sisteminin təşkili, əlilliyi olan şəxslərin bərpası sahəsində qabaqcıl təcrübənin öyrənilməsi;

11. ölkə üzrə əhalinin sosial müdafiəyə xüsusi ehtiyacı olan qrupları üçün sosial xidmətlər şəbəkəsinin təşkili və genişləndirilməsi, fiziki və hüquqi şəxslər tərəfindən sosial xidmətlərin göstərilməsi;

12. təlim, beynəlxalq konfrans və təcrübə mübadiləsinin təşkili vasitəsilə mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması;

13. Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirdikləri istənilən digər sahə.

**Maddə 2**

Bu Anlaşma Memorandumunun icrasının əlaqələndirilməsi və ona nəzarət üzrə Tərəflərin cavabdeh qurumları aşağıdakılardır:

a) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən - Beynəlxalq əlaqələr şöbəsi;

b) İran İslam Respublikasının Kooperasiya, Əmək və Sosial Rifah Nazirliyi tərəfindən - Beynəlxalq əlaqələr şöbəsi.

**Maddə 3**

Tərəflər aşağıdakı formalarda əməkdaşlıq edirlər:

a) müvafiq qanunvericiliyə dair məlumatın, Tərəflərin fəaliyyət sahələrinə aid olan analitik materialların və elmi tədqiqatların nəticələrinin mübadiləsi;

b) rəhbərlik və mütəxəssis səviyyəsində səfərlərin təşkili;

c) Beynəlxalq Əmək Təşkilatının iştirakı ilə proqram və layihələrin həyata keçirilməsi;

d) Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirdikləri əməkdaşlığın istənilən digər forması.

**Maddə 4**

Bu Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsi üçün Tərəflər bu Anlaşma Memorandumunu imzaladıqdan sonra ən çox altı ay müddətində tədbirlər planını qəbul edirlər.

Bu Anlaşma Memorandumu çərçivəsindəki fəaliyyətlərin maliyyələşməsi Tərəflərin müvafiq il üçün ayrılmış büdcə təxsisatları daxilində və müvafiq qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

Tərəflərin qarşılıqlı qaydada tərcümə xidmətindən istifadə barədə razılığa gəldiyi hallar istisna olmaqla, bu Anlaşma Memorandumunun işçi dili ingilis dilidir.

Bu Anlaşma Memorandumu çərçivəsində nümayəndə heyəti və mütəxəssislərin səfər xərcləri göndərən Tərəfin hesabına və müvafiq milli qanunvericiliyin müddəalarına uyğun olaraq ödənilir.

**Maddə 5**

Bu Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı yazılı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan və bu Anlaşma Memorandumunun 8-ci maddəsi ilə müəyyən olunan

qaydada qüvvəyə minən ayrıca sənədlər formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 6**

Bu Anlaşma Memorandumunun müddəaları Tərəflərin dövlətlərinin tərəfdar çıxdıqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir etmir.

**Maddə 7**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 8**

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır. Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, bu Anlaşma Memorandumu avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Tehran şəhərində 2016-cı il 23 fevral tarixində, müvafiq olaraq 4.12.1394-cü il tarixində, Azərbaycan, fars və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə edilir.

**Azərbaycan Respublikasının**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyi adından**
*(imza)*

**İran İslam Respublikasının**
**Kooperasiya, Əmək və Sosial Rifah**
**Nazirliyi adından**
*(imza)*